*Səyyar qəbullar*

# Kənddə görüş



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin martın 5-də rayonun Çuxur Qəbələ kənd sakinləri ilə görüş-qəbulu keçirilmişdir.

Görüş-qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Rüfət Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və kənd sakinləri iştirak etmişlər.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev kənd sakinlərini salamlayaraq, təsdiq olunmuş qrafikə uyğun olaraq qəsəbə və kəndlərdə əhali ilə görüş-qəbulların keçirildiyini bildirmişdir. Çıxışına davam edən hörmətli başçı ölkədə qazanılan uğurlardan danışmış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza, eləcə də Çuxur Qəbələ kəndinə göstərdiyi xüsusi diqqət və qayğıdan söhbət açmış, Qəbələdə aparılan tikinti-quruculuq işlərini, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirləri və bu sahədə qarşıda duran vəzifələri geniş təhlil etmişdir.



Sonra xidmət təşkilatlarının rəhbərləri ərazidə öz sahələri üzrə görülən işlər və ilin sonunadək həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat vermişlər.

Daha sonra Çuxur Qəbələ kənd sakinləri onları narahat edən sosial məsələlərin həlli ilə bağlı Səbuhi Abdullayevə və Rüfət Əliyevə müraciətlər etmişlər.

Sakinlər yaşayış məntəqəsinin yeni massivində subartezian quyusunun qazılmasını və ərazidə uşaq bağçasının açılmasını xahiş etmişlər.

Kənd sakinləri adından ağsaqqal Rüstəm Abdurahmanov qonaqları və iştirakçıları salamlamış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bölgəyə göstərdiyi diqqətə görə minnətdarlığını ifadə edərək, kəndin fasiləsiz təbii qazla, elektrik enerjisi ilə təminatı, rayonda əhalinin rifah halının yaxşılaşdırılması, işsizliyin və sosial problemlərin aradan qaldırılması, tikinti quruculuq işlərinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərlə əlaqədar öz razılıqlarını bildirmişdir.

Yekunda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Çuxur Qəbələ kəndində keçirilən görüş-qəbulda sakinlər tərəfindən edilən müraciətlərlə bağlı rayonun əlaqədar təşkilatlarının rəhbərlərinə lazımi tapşırıq və göstərişlər vermişdir.

# 8 Mart—bayram şənliyində

***Azərbaycan qadını cəmiyyətdə bərabər hüquqlara malik olub, öz istedadını göstərə bilib və özünə məxsus yer tutubdur, öz daxili və zahiri gözəlliyini dünyaya nümayiş etdiribdir.***

**Heydər Əliyev.**



Qadınlar yer üzünün ən zərif məxluqlarıdırlar. Qadınlar gözəllik təcəssümüdürlər. Qadınlar həm bacı, həyat yoldaşı, ömür-gün sirdaşı, ən ümdəsi isə anadırlar. Cənnət anaların ayaqları altındadır deyib müdriklər.

Öz incəliyi ilə fərqlənən qadınlar tarix boyu qəhrəmanlıq, mübarizlik əzəmətləri ilə fərqlənmişlər. Xalqımızın tarixinə nəzər saldıqda Həcər, Nigar kimi qəhrəman, Nüşabə kimi uzaqgörən hökmdar, Natəvan, Məhsəti kimi şairə qadınlarımızla fəxr edirik.





Martın 7-də “Qafqaz Karvansaray” hoteldə 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə təntənəli bayram şənliyi keçirilmişdir. Rayonun fəal qadınlarından bir qrupu, ictimaiyyətin nümayəndələri tədbirə dəvət olunmuşdular.

Bayram şənliyində rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və bir sıra idarə və müəssisələrin nümayəndələri iştirak edirdilər.

Tədbiri rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova açdı və şənlikdə iştirak edən qadınları, onların şəxsində rayonumuzun bütün qadınlarını təbrik etmək üçün sözü hörmətli başçı, cənab Səbuhi Abdullayevə verdi. Möhtərəm başçı bildirdi ki, Azərbaycan qadınları əsrlər boyu xalqımızın, Vətənimizin ictimai həyatında müstəsna rol oynamışlar. Zamanın bütün sınaqlarından alnıaçıq, üzüağ çıxan Azərbaycan qadını bu gün müstəqil ölkəmizdə demokratik, dünyəvi və hüquqi cəmiyyətin aparıcı qüvvəsidir.

Ümummilli liderimiz Heydər Əliyev qadınların cəmiyyətdəki rolu ilə bağlı siyasətin səmərəli şəkildə həyata keçirilməsinə, onların dövlət qulluğunda, elm, mədəniyyət, təhsil, səhiyyə, idman və digər sahələrdə geniş təmsil olunmalarına müstəsna əhəmiyyət verirdi. Ulu öndərimizin müdrik siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Möhtərəm Prezidentimizin apardığı uzaqgörən siyasətin nəticəsidir ki, bu gün qadınlarımız yalnız Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da tanınır, beynəlxalq qurumlarda ölkəmizi ləyaqətlə təmsil edirlər.

Azərbaycanın qədim və zəngin tarixə malik Qəbələ rayonunda da öz nəcib, xeyirxah əməlləri ilə cəmiyyətdə hörmət qazanmış neçə-neçə görkəmli qadın şəxsiyyətlər yetişmişdir ki, bu gün onların fəaliyyəti gənclərimiz üçün örnək və həyat məktəbidir.

Sonda hörmətli başçı rayonumuzun qadınlarını 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə bir daha təbrik etmiş və onlara xoş arzularını bildirmişdir.

Şənliyi sonadək musiqi qrupu müşayiət etmişdir. Qrupun ifasında səslənən milli rəqslər, estrada və xalq mahnıları bayram iştirakçılarında xoş ovqat yaratmışdır.

Bayram münasibətilə rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup fəal qadın fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. UMUYEVİNDİR.**